Şeytanın qurduğu hiyləni vəsvəsəyə çevirən Allaha həmd olsun" - dedi

İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət olunur ki, Bir adam Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gələrək: "Ey Allahın Rəsulu, bizlərdən birimiz qəlbində elə bir şey hiss edir ki, öz içində yanan bir alov kimi olması başqalarına söyləməsindən daha sevimli gəlir" dedi. Buna cavab olaraq Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun): "Allahu Əkbər! Allahu Əkbər! Şeytanın qurduğu hiyləni vəsvəsəyə çevirən Allaha həmd olsun" - dedi.

[Səhih] [Əbu Davud, Ən-Nəsai Əl-Kubrada rəvayət etdi]

Bir adam Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gələrək: "Ey Allahın Rəsulu, bizdən birimiz qəlbinə sıxıntı verən və onu dilə gətirə bilməyəcək dərəcədə böyük bir şey hiss etdikdə, onun içində yanan bir alov kimi olması, o sözü söyləməsindən daha sevimlidir " dedi. Buna cavab olaraq Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) iki dəfə təkbir gətirdi və şeytanın qurduğu hiyləni vəsvəsəyə çevirən Allaha həmd etdi.

http://sunnah.global/hadeeth/az/show/65012